# Doğma ölkəmizdə

## Kənd təsərrüfatı məhsullarının istehsalı 5 faiz artıb

*Cari ilin yanvar-oktyabr ayları üzrə kənd təsərrüfatının ümumi məhsulunun faktiki qiymətlərlə dəyəri 6203,7 milyon manat təşkil edib ki, onun 3135,1 milyon manatı heyvandarlıq, 3068,6 milyon manatı isə bitkiçilik məhsullarının payına düşür.*

*Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə kənd təsərrüfatının istehsalı 5,0 faiz artıb, o cümlədən heyvandarlıq məhsulları üzrə 2,6 faiz, bitkiçilik məhsulları üzrə isə 7,4 faiz artım olub.*

## Gələn il üçün payızlıq əkin səpilib

*Təsərrüfatlarda 2019-cu ilin məhsulu üçün müvafiq işlər görülür. Təmiz herik şumu daxil olmaqla cari ilin payızlıq əkinləri üçün 856,3 min hektar sahə şumlanıb.*

*Gələn ilin məhsulu üçün 417,8 min hektar sahədə dən üçün payızlıqlar səpilib.*

*Ümumi əkinin 247,2 min hektarı və ya 59,2 faizi buğda, 170,5 min hektarı və ya 40,8 faizi arpa əkinləridir.*

## Qeyri-neft sənayesi məhsulları istehsalı artır

*10 ay ərzində ölkədə 40 milyard manatlıq sənaye məhsulları istehsal edilmişdir ki, bu da ötən ilin eyni dövrünə nisbətən 1,5 faiz çoxdur. Sənayenin qeyri-neft sektorunda məhsul istehsalı 10 faiz artmışdır. Artım neft sektorunda da qeydə alınmışdır - 0,2 faiz. Məhsulların 73,4 faizi mədənçıxarma, 22 faizi emal, 3,9 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, 0,7 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında istehsal edilmişdir. Mədənçıxarma sektoru üzrə neft hasilatında 0,1, əmtəəlik qaz hasilatında 3,5 faiz artım müşahidə olunmuşdur.*

*Emal sektorunda isə avtomobil, qoşqu və yarımqoşquların istehsalı 26,5, tütün məmulatları 2,5, elektrik avadanlıqlarının istehsalı 2,4, poliqrafiya məhsulları istehsalı 2,9, mebel istehsalı 2,1 dəfə, dəri və dəri məmulatları, ayaqqabı istehsalı 35,6, toxuculuq sənayesi məhsulları istehsalı 48,8, tikinti materialları istehsalı 28,9, metallurgiya sənayesi məhsulları istehsalı 13,3, içkilərin istehsalı 10,6, kimya sənayesi məhsulları istehsalı 3,8, kağız və karton istehsalı 6,8, ağacın emalı və ağacdan məmulatların istehsalı 21 faiz artmışdır. Artım həmçinin elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı, eləcə də su təchizatı, tullantıların təmizlənməsi və emalı sektorlarında müşahidə olunmuşdur - müvafiq olaraq 5,7 və 3,3 faiz.*

# Mütəxəssis məsləhəti

## Mütləq sertifikatlaşdırılmış toxumdan istifadə edilməlidir

Taxıl əkən təsərrüfatçılar mütləq sertifikatlaşdırılmış toxum almalıdırlar. Çünki həmin sertifikatda toxuma aid bütün göstəricilər öz əksini tapır. Təsərrüfatçılar məhz bu sertifikat əsasında hər hektara nə qədər toxum səpilməsini müəyyənləşdirməlidir. Məsələn, adi halda bir hektara 200 kiloqram toxum əkilir. Amma cücərmə qabiliyyəti nisbətən aşağı və min dənin çəkisi artıq olarsa, fermer 200 kiloqram yox, 220-230 kiloqram toxum səpməlidir. Bir sözlə, sertifikatlaşdırılmamış toxum əkən fermerlər risk edir.



Toxumun sertifikatlaşdırılması üçün əvvəlcə təsərrüfatçıların taxıl sahələrinə mütəxəssislərin iştirakı ilə baxış keçirilərək aqrobasiya aktı tərtib olunur. Tərtib olunmuş aktda taxıl sahələrində sortun təmizliyinin standartın tələblərinə uyğun olub-olmadığı öz əksini tapır. Yığılmış toxumluq məhsul kondisiyaya çatdırıldıqdan sonra hər 30 tona bir kiloqram nümunə götürülərək laboratoriyada analiz olunur.

Toxumun sertifikatlaşdırılması üçün toxum istehsalçıları əvvəlcə bəyannamə ilə rayonun baş aqronoma müraciət edirlər. Müraciətdə təsərrüfatçının nə qədər kondisiyalı toxum istehsal etdiyi göstərilir. Laboratoriyada toxumun cücərmə qabiliyyəti, nəmliyi, toxumun təmizliyi, min dənin kütləsi, xəstəlik və zərərvericilərə sirayətlənməsi və sair yoxlanılır. Toxumluq taxıl kisələrə yığılaraq etiketlənir.

"Əzəmətli-95", "Qobustan", "Bezostaya ", "Fatimə" kimi buğda sortları şimal zonası üçün yerli iqlim şəraitinə uyğun, xəstəliyə davamlı sortlar sayılır. Bəzən təsərrüfatçılar əkin üçün mənşəyi məlum olmayan, sertifikatlaşdırılmamış toxum alırlar. Toxum görünüşcə yaxşı olsa belə, laboratoriyada analiz olunmadan onun keyfiyyəti barədə fikir söyləmək olmaz. Bəzən yanlış olaraq, iri dənin toxumların daha yararlı olduğunu düşünürlər. Amma bu, əsas şərt deyil. Ola bilər ki, həmin toxumun cücərmə faizi çox aşağıdır və ya onda hansısa xəstəlik var.

Standarta görə toxumun cücərmə qabiliyyəti azı 92 faiz və ya daha yüksək olmalıdır. Əks halda həmin toxum sertifikatlaşdırılmır. Toxum təmizliyi isə 98 faizdən aşağı olmamalıdır. Bu göstəricidən aşağı olarsa, taxıl yenidən təmizlənməlidir. Toxumun nəmliyi isə 12-14 faizdən çox ola bilməz. Toxum standartlarında min dənin çəkisi də vacib amillərdəndir. Məsələn, standarta görə "Əzəmətli-95" sortunda min dənin çəkisi 38-42 qram arasında dəyişir. Bu halda hektara səpin norması azalıb və yaxud artırıla bilər.



# Sahilbərkitmə işləri başa çatdırılıb

Prezident İlham Əliyevin sel və daşqın təhlükəli çayların zərərli təsirinə qarşı mübarizə və qəza vəziyyətinin aradan qaldırılmasına dair Sərəncamına əsasən Qəbələ suvarma Sistemləri İdarəsi tərəfindən Dəmiraparançay çayının sağ sahilində Qəbələ-Laza avtomobil yolunun və yaşayış məntəqələrinin mühafizəsi məqsədilə inşa edilməsi nəzərdə tutulan 1350 p/metrlik dəmir-beton mühafizə bəndinin tikintisi işləri başa çatdırılıb.

**Səhrab UMUYEV,**
**"Qəbələ"**

# Dövlət qayğısı ruhlandırır

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iqtisadiyyatın bütün sahələrinə, o cümlədən aqrar sektora göstərdiyi diqqət və qayğı öz bəhrələrini verməkdədir. Belə ki, ölkəmizdə kənd təsərrüfatı məhsullarının istehsalı ildən-ilə artır. Bir vaxt demək olar ki, bütün kənd təsərrüfatı məhsullarını idxal edən ölkəmiz artıq bir sıra məhsulların ixracatçısına çevrilib.***



Son illər qiymətli kənd təsərrüfatı məhsulu olan bal istehsalına da dövlət qayğısı artırılıb. Belə ki, arıçılıqla məşğul olan fermerlərə və fiziki şəxslərə hər bir arı ailəsi üçün ildə 10 manat subsidiya verilməsi nəzərdə tutulmuşdur. Artıq sənədləşmə işləri başlanmışdır. İlin sonunadək bu məsələnin həll olunması gözlənilir.

Arı ailələrinə qulluq edən, bazarlara qiymətli arıçılıq məhsulları–xüsusilə bal çıxaranların sayı rayonumuzda ildən-ilə artır. Arı saxlamaqdan zövq alan və maddi dolanışıq əldə edən şəxslərdən biri də Bum qəsəbə sakini Emin Ədilovdur. Qəbələdə çoxları onu müəllim, şair, dülgər və sair kimi yaxşı tanıyır. 15-dən artıq kitabın müəllifi olan Emin müəllimin ən sevdiyi sahələrdən biri də arıçılıqdır. O, sevgi ilə yanaşdığı bu sahə ilə 40 ildən çoxdur ki məşğuldur.

Ölkə Prezidentinin arıçılığa yetirdiyi diqqət, arıçılara maddi köməkliyin göstərilməsi barədə tapşırıqları Emin müəllimi bu sahəyə daha da ruhlandırmışdır. O, arı ailələrinin sayını daha da artırmaqla növbəti illərdə bazara daha çox ekoloji cəhətdən təmiz bal çıxarmaq niyyətindədir.

Emin müəllim deyir ki, arı ailələrin qutularla, lazımı dərman və avadanlıqlarla, vaxtaşırı köçürülmələri ilə bağlı olan xərclər indi dövlət tərəfindən ödəniləcəkdir ki, bu da bizim təsərrüfatımızı daha da genişləndirməmizə imkan yaradır.

**Rais RƏŞİDOV,**
**«Qəbələ»**

# Tütünçülüyün inkişafı öz müsbət nəticələrini verir

Azərbaycan Prezidentinin 2017-ci il 10 avqust tarixli Sərəncamı ilə təsdiq edilən "Azərbaycan Respublikasında tütünçülüyün inkişafına dair 2017-2021-ci illər üçün Dövlət Proqramı"-nın əsas məqsədi ölkədə tütünçülüyü inkişaf etdirmək, tütün məmulatları istehsalını artırmaq, emal müəssisələri yaratmaq, tütün məmulatlarının ixracını təşviq etmək və beləliklə, tütünçülüklə məşğul olan insanların gəlir əldə etmək imkanlarını genişləndirməkdir.



Qəbələ rayonunda tütünçülüyün inkişaf etdirilməsi üçün zəngin ənənə və böyük potensial var. İxrac potensialı yüksək olan bu sahə uzun illər diqqətdən kənarda qalsa da, son illər ölkə rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində tütünçülük yenidən dirçəlməyə başlayıb, bu gəlirli sahəyə maraq göstərənlərin sayı xeyli artıb.

Cari ildə rayonumuzda 75 hektar sahədə tütün əkilmişdir. Sahələrdən 849 ton yaş tütün qırılmış və 105 ton qurudulmuş tütün qəbul məntəqəsinə təhvil verilmişdir.

Qəbələdə aqrar sektorun dəqiq hədəflərə hesablanmış inkişaf xəttinin uğurla davam etdirilməsi strateji əhəmiyyətə malik kənd təsərrüfatı məhsullarının istehsalına müsbət təsir göstərəcək, kənd əməkçilərinin rifahının daha da yaxşılaşdırılmasına stimul verəcəkdir.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**"Qəbələ"**